# Yevlaxda qalib diktəsi

## Azərbaycanın erməni sakinləri mərkəzi hakimiyyətdən yardım istədilər

**Dünən Yevlax şəhərində tarixi görüş baş tutdu. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının dəvəti ilə Yevlaxda ölkəmizin Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə baş tutan ilk dialoqda qalib tərəf kimi Azərbaycan mərkəzi hakimiyyəti bir daha öz şərtlərini diktə etdi.**

Konstruktiv və müsbət mühitdə keçən dialoqda Azərbaycan Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparıldı, tezliklə növbəti dialoqun keçirilməsi barədə razılıq əldə edildi.

Cəmi bir günə Azərbaycan Ordusu qarşısında diz çökən qeyri-qanuni erməni silahlı birləşmələri ağ bayraq qaldırdıqdan sonra tərəflər arasında müzakirələrin başlanması reinteqrasiya prosesinə gedən yolda bir başlanğıc kimi qiymətləndirilməlidir. Çünki Qarabağ erməniləri ilə Azərbaycanın mərkəzi hakimiyyəti arasında bütün problemlərin bir görüşdə həllini gözləmək mümkün deyil.

Bu görüşdən sonra Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov da "Sky News Arabia" telekanalının efirində bildirdi ki, Yevlaxdakı ilk görüş çoxlu görüşlərdən birincisidir. Amma Qarabağdakı ermənilərin sonrakı taleyi Azərbaycanın daxili işidir. Çünki tarixi qələbədən sonra Qarabağda yeni reallıqlar yarandı və indi bütün proseslər Azərbaycanın şərtləri əsasında həyata keçiriləcək.

Bəs, ilk müzakirələr zamanı Qarabağın erməni sakinlərinin nümayəndələri mərkəzi hakimiyyətdən nə istədilər? Prezident Administrasiyasının açıqlamasında bildirilir ki, onlar mərkəzi hakimiyyətdən xüsusilə yanacaq və qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər və bu xahişləri müsbət qarşılanıb.

Əlbəttə ki, bütün bunlar antiterror əməliyyatlarından öncə baş versəydi, hər iki tərəfdən itkilər olmazdı. Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu əyani şəkildə nümayiş etdirirb. Lokal xarakterli antiterror tədbirlərindən öncə Azərbaycan dəfələrlə dialoq təklifləri irəli sürsə də, qarşı tərəf bundan imtina edib. Ancaq "Dəmir yumruq" növbəti dəfə başlarını əzdikdən sonra reallıqla barışmalı oldular və qanunsuz cinayətkar rejimin tərk-silah edilməsi ilə əllərində girov kimi saxladıqları Qarabağın erməni əhalisi zülmətdən qurtuldu.

Sentyabrın 20-də xalqa müraciət edən İlham Əliyev daim humanizmə əsaslanan siyasəti ilə bir daha ermənilərə səslənərək dedi ki, Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi şans yaradılıb. O şansı əldən verməsinlər. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan birgəyaşayış təklifidir. Qarabağda yaşayacaq ermənilərin bütün hüquqları - təhsil, mədəniyyət, din hüquqları, bələdiyyə seçki hüquqları təmin ediləcək.

Azərbaycan Prezidenti hər zaman sülhün tərəfdarı olduğunu sözü və həyata keçirdiyi tam müstəqil siyasəti ilə sübut edib. Bu gün də dəyişməz mövqeyini dünyaya nümayiş etdirən İlham Əliyevin ermənilərə ünvanladığı bu mesaj, yəqin ki, onları son qərar vermək üçün düşündürəcək. Çünki seçim onlarındır - ya Azərbaycan vətəndaşlığını qəbul edib Qarabağda bizimlə birgə yaşamalı, ya da ərazilərimizi birdəfəlik tərk etməlidirlər.

Ümidvarıq ki, Qarabağın erməni sakinlərinin nümayəndələri ilə Yevlaxda keçirilən ilk dialoq onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə nəticələnəcək, öz növbəsində Ermənistan rəhbərliyi də normallaşma prosesi çərçivəsində məsuliyyətli davranacaq, regionda uzunmüddətli sabitliyi təmin edəcək sülh sazişinin imzalanması istiqamətində doğru qərar verəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 22 sentyabr.- S.4.